# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrasından irəli gələn bəzi məsələlərin həll edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 yanvar tarixli 2s nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında**

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 dekabr tarixli 633s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 486s nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. “Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrasından irəli gələn bəzi məsələlərin həll edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 yanvar tarixli 2s nömrəli Sərəncamında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Sərəncama əlavə - “Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əsas icraçı olduğu tədbirlər üzrə icra funksiyasının yerinə yetirilməsi həvalə edilən dövlət orqanları (qurumları)” cədvəli üzrə:

1.1.1. 1-3-cü, 7-9-cu, 15-16-cı, 40-cı, 43-cü, 46-cı və 57-ci hissələr ləğv edilsin;

1.1.2. 56-cı, 58-59-cu, 65-ci, 67-ci və 71-ci hissələr aşağıdakı redaksiyada verilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 56. | 8.8.4.1.1. | Naxçıvan şəhərində mövcud stadionun əsaslı təmirinin və bəzi sahələrində yenidənqurma işlərinin layihə-smeta sənədlərinin hazırlanması | NMR GİN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 58. | 8.8.4.2.1. | Naxçıvan Muxtar Respublikasının şəhər və qəsəbələrində sadə tipli açıq hava idman qurğularının qurulması | NMR GİN | NMR FHN, YİH | 2025 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 59. | 8.8.4.2.2. | Naxçıvan şəhərində mövcud stadionun əsaslı təmirinin və bəzi sahələrində yenidənqurma işlərinin yerinə yetirilməsi | NMR GİN | NMR FHN, NMR DŞAK, NŞİH | 2026-2027 |
| 65. | 8.10.2.1.8 | Naxçıvan Dövlət Kukla Teatrının mövcud binasının əsaslı təmir edilməsi və maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı layihə sənədlərinin hazırlanması | NMR MdN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 67. | 8.10.2.2.1. | "Naxçıvanın 7 incisi" Tarix-Memarlıq Turizm Kompleksinin yaradılması, müvafiq abidələrin bərpası və ərazinin abadlaşdırılması istiqamətində işlərin davam etdirilməsi | NMR MdN | NMR FHN, NMR DŞAK, NŞİH | 2026 |
| 71. | 8.10.2.2.10. | Naxçıvan Dövlət Kukla Teatrının mövcud binasının əsaslı təmir edilməsi və maddi-texniki bazasının gücləndirilməsi | NMR MdN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025-2026 |

1.1.3. aşağıdakı məzmunda 111-ci və 112-ci hissələr əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 111. | 8.10.5.2.11. | Tibb müəssisələrinin avadanlıqlarla təchiz edilməsi | NMR SN | | 2025 |
| 112. | 8.11.6.2.1. | Naxçıvan Muxtar Respublikasında mərkəzləşdirilmiş tullantı poliqonunun və bərk məişət tullantılarının emalı müəssisəsinin yaradılması istiqamətində işlərin davam etdirilməsi | NMR ETSN | NMR FHN, NMR DŞAK, YİH | 2025-2026 |

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, "8" "avqust" 2025-ci il

№ 98s